# "YADDAŞ AĞRISI"

Şəfəq Nasirin publisistik yazıları emosiyası, essevari ifadə tərzi, bir sözlə, mjüəllifin hiss və həyəcanlarını ifadə baxımından fərqlənir. Nə qədər nəsr kökənli olsa da, yazının içərisindən keçən poetik əhval mətnə bir şirinlik, həzinlik gətirir. Sanki keçmiş, ötüb-keçən zamanı xəyalına gətirən yaddaş sahibi ruhunun həzinliyi ilə ağrısının laylasını çalır. Və bu da istər-istəməz oxucunun yaddaşında nənəsinin laylasını dinləyən və həzin layla səsindən təsirlənən uşağın ovqatını yaradır. Hər birimizə yaxşı məlumdur ki, uşaq çağlarımızda eşitdiyimiz laylalar məhz həmin həzinlik sayəsində yaddaşımızdan pozulmur. Həyatın min cür hadisələrini yaşamış olsaq belə, həmin xatirə həzinliyi ömrümüzün sonuna qədər bizi izləyir.

Yazıçı intuisiyası ilə müəllif yaddaşının ağrısı kimi qələmə gətirdiyi mətni həzinlik ovqatı ilə müşayiət edir. Bununla da əsərinin oxunaqlığını yaddaşdakı yaşarılığını təmin etmiş olur. Müəllif əvvəlcə publisistik essenin nüvəsində vermək istədiyi mahiyyətə məlum zamanın etiketi kimi tarixi sənədlərdə əbədiləşmiş terminlərdən başlayaraq gəlir. Didərgin, qaçqın, köçkün terminləri... məlum deportasiya... öz yurdundan ölüm təhdidləri ilə qovulub çıxarılmış insanların keçirdiyi hissləri özünün yaşantıları ilə yazıya gətirir və səngiməyən yaddaş ağrısına işıq tutur. Əldən çıxmış, düşmən tərəfindən qəsb edilmiş, yurdun itkisini müəllif sanki ruhunun amputasiyası kimi qavrayır, ambutasiyadan sonra, məcburi halda müəyyən zərurətdən yaranmış vəziyyəti gözlərimizin önünə gətiririk. Yəni kəsilmiş bədən hissəsi bədəndən ayrılmış olsa da, bədən o ağrını daşıyır. Həkimlərdən və amputasiya olunmuş şəxslərdən eşitmişəm; insan bədənindən kəsilmiş parçasının ağrısını uzun illər yaddaşında saxlayır. İnsan protezi - ayağı əvəz edən cansız cisim geyir. Ancaq ona elə gəlir ki, ayağı yerindədir və ayaqqabı ayağını döyür. Şəfəq Nasirin düşüncəsindəki həmin ağrı artıq Azərbaycanlılardan qoparılmış, alınmış, bir sözlə, ruhumuzdan kəsilib götürülmüş torpağın ağrısıdır. Və şübhəsiz, müəllifin psixoloji uğuru olaraq mətnə çevirilmiş olur. müəllif mənsur şeir kimi bir-biri ilə zəncirvari bağlı olan mətndə yerindən-yurdundan ayrılmış insanın varlığına nüfuz edir, sanki onun aləminə müəyyən mənada tarixi bir muzey ekspozisiyası kimi baxır və orada gördüklərinin mənzərəsini yaradır. O, görür ki, hər bir insanın varlığında "Yurd yerlərinin nisgili, od -ocaqlarının istisi qalıb". "Nisgil" soyuqluq əlamətidir. Bu söz dərd, kədər daşıyıcısıdır. "İsti" isə hərarət, ovunma, təskinlik mahiyyəti ifadə edir. Müəllif bir cümlənin içindəiki sözün və hardasa antonim, bir-birinə zidd ifadənin qarşılaşması ilə müəyyən mənzərəni təsəvvürdə tam canlandırmaq imkanına malik olur.

Şəfəq Nasirin yaddaş mətnində təkcə hisslər, emosialar, kədərli ovqat yer tutmur. Biz mətnin içərisindən də kifayət qədər informasiya alırıq. İnformasiya-məlumat faktı ehtiva edir. Fakt isə kədərin, dərdin əsas mənbəyini göstərir.

Müəllifin informasiya mənbəyi də yaddaşa söykənir. Nəsil, şəcərə baxımından ulularının, qədim türk yurdları, yerləri olan və bu gün dünyanın heç bir mənəvi, hüquqi prinsiplərinə uyğun gəlməyən erməni vandalizmi sayəsində işğal olunub. Bu işğal faktını müəllif mətndə adı çəkilən yerlərlə ittiham sənədinə çevirir: "Kökümün taleyi məni hər vaxt o yerlərin yaşantıları, xatirələri-lə çulğayır. Elə bu anlarda da yadıma İrəvan haqqında, doğma od-ocaqları, taleləri bardə atamdan, babamdan eşitdiyim xatirələr, söhbətlər düşür. Əsrin əvvəllərində İrəvanda babamın doğulub yaşadığı "Dəmirli bulaq" küçəsi ən böyük yaşayış məskənlərindən biri idi. O böyüklükdə küçədə 2 ya 3 erməni evi varmış". Bu faktın özü XX əsrin az qala yarısına qədər qədim İrəvan şəhərində ermənilərin xüsusi çəkisinin qədəri haqqında məlumat verir. Azərbaycanlıların xüsusi münasibəti sayəsində ermənilər İrəvan şəhərində getdikcə kəmiyyət baxımından üstünlüyə nail oldular. Onların vecsizliyi məhz Azərbaycanın siyasi hakimiyyət tərəfindən dəstək verilməməsi sayəsində artan gücə çevrildi. Müəllif yazı boyu azərbaycanlıların çoxluğu içərisində ermənilərin riyakar, ikiüzlü təbiətinə də münasibət bildirir. Zaman gəlir ki, artıq kəmiyyət baxımından gücə çevrilmiş düşmən Azərbaycan hökumətindən müqavimət görmədiyi üçün get-gedə daha çox azğınlaşdı. İkinci cahan müharibəsindən sonra məcburi köçürülmə 1980-ci illərin axırında erməni barbarlığı, vəhsiliyi ilə əvəz olundu. Dözüb iyirminci əsrin son on illiyinəcən gəlmiş azərbaycanlılar işgəncələrə, təqibə, hər cür təhqirə, məhvə məruz qaldılar. Beləliklə, erməni vandallığının daha bir iyrənc siması tarixin ən biyabırçı səhifəsinə çevrildi. Şəfəq Nasirin qələmə aldığı publisistik essenin dəyəri ondadır ki, bu gün həmin mətni oxuyan hər kəs, daha doğrusu yeni nəsil indi az qala unudulmaqda olan yer-yurd adları ilə tarixə ağrılı bir səyahət edə bilir. Şəfəq Nasir Ləlvər dağının, Qarabulaq meşəsinin adlarını çəkir. Həzin bir duyğu ilə yaddaşa ağrı yükü gətirir: "Görün bir, o yerlərdə heç nəyə haqqı olmayan bir ovuc qorxaq erməni əsrin axırında nə qədər qan tökdü. 200 mindən çox soydaşımızı ev-eşiyindən, ocaqlarından didərgin saldı. Xatirələr çözüldükcə çözülür. Yadıma o yerlərin bağ-bağatları, güllü-çəkli, buzbulaqları Ləlvər dağı, moruqlu- çiyələkli, zoğallı Qarabulaq meşəsi düşür. Daş-daş üstə qoyub ürəklərinin hərarətiynən ev tikən, yuva quran, bağ becərib, bostan əkən mehriban adamların həyat tərzini gözlərimin önündən kino lenti kimi ötürdükcə kövrəlirəm, sarsılıram. Ömürlərində didərginlik, qaçqınlıq, köçkünlük taleyini yaşayan bu insanların aqibəti qol-budaqlarımızı silkələməyə, rahatsız etməyə bilməz. Çünki kökümüzün faciəsinə, taleyinə unutqanlığı tarix bizə heç vaxt bağışlamaz". Müəllif narahatdır. Çünki zaman keçdikcə hadisələrin tarixi məcraya qaytarılmaması yüz minlərlə insanın öz haqqından məhrum edilməsi və demək olar ki, dünyanın gözü qarşısında həqiqətlərin ört-basdır edilməsi mənəvi latergiya effekti yarada bilər. Hər halda biz təkcə indiki Ermənistan ərazisi adlandırılan və zamanında qərbi Azərbaycan olan əraziləri nəinki qaytara bilmədik, hələ üstəlik Dağlıq Qarabağı və ətraf rayonları da işğaldan qoruya bilmədik.

Düşünürəm ki, bir yazıçı üçün öz missiyasının həqiqəti, doğma yer-yurd uğrunda mübarizəsi onun yaradıcılığında həyat reallıqlarına uyğun elə bu qədər görünə bilər. Müəllifin ürək yanğısı ilə qələmə aldığı əsərində məhz bu məsələlər araşdırılır. O, həyəcanları ilə süslənmiş publisistik essesində yeni nəsil azərbaycanlı obrazına münasibət bildirməkdən də çəkinmir. Çünki yeni nəsil kapitalizm cəmiyyətinin gətirdiyi eyforiya ilə böyüyür. Və bu eyforiyanın nə vaxt bitəcəyini gözləmək də sadəlöhvlük olardı. Müəllifin ritorik sualları gənc nəslin mənəvi hazırlığına cavabdeh olan qurumlara ünvanlanıb: "Düşünürəm, bütöv bir əsrdə bu faciələr başımıza niyə gətirildi? Bir qaşıq qanından qorxan erməni necə oldu ki, bu qədər qanlar tökdü, torpaqlar zəbt etdi? Yəqin ilk növbədə Qərbi Azərbaycanda özlərinin yersiz olmaları qorxusu onları ayıq-sayıq olmağa səfərbər edib. Erməni öz balasını beşikdəykən bizə qarşı nifrət ruhunda tərbiyə edib. Bizim torpaqlarımızın hələ lap qədimdən onlara məxsus olması kimi ağ yalanlara alışdırıb. Bəs, biz necə övlad tərbiyə etmişik? Başqa xalqlarla, elə üzdəniraq erməni qonşularımızla xətir-hörmət saxlamaq ruhunda böyütmüşük. Bu tərbiyəmizin acı nəticələri göz qabağındadır..." müəllif tarixə müraciəti məlum həqiqətləri sadəcə təkrar eləməklə bitmir. Böyük rus çarından gələn ideyaların davamlı olaraq məqsədli həqiqətə çevrilməsini göstərməklə böyük türk gücünü səfərbər etməyin zərurətini diqtə edir: Əsas odur ki, müəllifin yazdıqları ermənilərə xas olan qəsbkarlığın bundan sonra da davam edəcəyinə hazır olmağa xəbərdarlıqdır: "Yadıma 1725-ci ildə I Pyotrun yazdığı vəsiyyətnamə düşür. 1916-cı ildə "Dirilik" jurnalında dərc olunmuş vəsiyyətnamədən aydın olmuşdur ki, o öz övladlarına Pus Səltənətinin bütün dünyaya hökmran olması yollarını göstərir. Türkiyəni Avropadan ayırmağı tövsiyə edib. Deyib ki, Rusiya dövlətini o zaman dünya dövləti adlandırmaq olar ki, onun paytaxtı Asiya və Avropa xəzinələrinin açarı olan İstanbul olsun. İstanbula sahib olan çar ilahi çar olacaqdır. Hamımıza gün kimi aydındır ki, vərəsələri I Pyotrun vəsiyyətlərini bir təlimat kimi mənimsəmiş, mərhələ-mərhələ ona əməl etməyə çalışmışlar. Yəni dünya dövlətləri içərisində həmişə hakim olmaq iddiasındadırlar. Bizim ən böyük günahımız ifrat dərəcədə ürəyi yumşaq olmağımızdır. Bir də yerimizin, yurdumuzun bütöv mənada təəssübcüsü ola bilməməyimiz, bəzən də şəxsi mənafeyimizi xalqın mənafeyindən üstün tutmağımızdır". Müəllifin bir narahatlığı da açıq-aşkar görünür. O hiss edir ki, bir çox səlahiyyət sahibləri əsas tarixi missiyanı unudur, əllərinə düşən girəvədən şəxsi mənfəətlərini artırmaq məqsədi ilə istifadə edirlər. Bu qeydləri yazarkən bir çox məmurların ifşa olunması hətta həbs edilməsi haqqında xəbərlər göstərir ki, Şəfəq Nasirin timsalında ziyalı narahatlığı əbəs deyil. Ən şətin məqamlarda, sakitlik və sülh mühitinhdə ziyalı yada düşür. İnsanların ümidi və bir az da el dilində desək, xalqın gözünün tikəcəyi olan ziyalı çətin vəziyyətdə, böhranlı durumda cəmiyyət üçün işıq olur. Həmin işığın mahiyyəti əslində yaradıcı ziyalının araya-ərsəyə gətirdiyi mənəvi düşüncə materialıdır. Şəfəq Nasir əslində cəmiyyəti daha dərin mənəvi böhran zamanında ələcsizliq vəziyyətinə hazırlayır. Və elə "Yaddaş ağrısı" yazısı da bu məqsədə xidmət edir. Bəlkə də, əsərin bədii cəhətdən yazıçı təfəkküründən keçməsi müəyyən mənada nəsrin tələblərinə cavab vermir. Çünki əsərin janrı publisistik esse istiqamətində müəyyənləşib. Sənətkarın hansı janrda, hansı ədəbi-bədii üsluba söykənərək yazması onun öz işidir. Ancaq yazdığı, araya-ərsəyə gətirdiyi matreal müəyyən mənəvi tələbata cavab verməlidir. Yalnız bu zaman sənətkarın öz missiyasını yerinə yetirdiyini təsdiq edə bilərik. Şəfəq Nasir məxsusi olaraq bu əsərində oxucunun hisslərinə təsir edə biləcək gücdə görünür. Çünki yazıçı yaradıcılıq mühitinin və həyatının elə bir mərhələsindədir ki, o, cəmiyyətlə - insanlarla kifayət qədər gücə malik təsirlə danışa bilir. Buna onun həm yaradıcılıq potensialı, ədəbi təcrübəsi və yetkin ömür, yaş həddi imkan verir.

Müəllifin konkret cavab tələb edən sualları da var: "Bu gün biz o yaşayış yerlərimizlə bağlı nələri itirə bilərik? Bütün dəyərlərimizi, yaşantılarımızın yaddaş izini. Bunlar mənəvi itirmələrdi. Bəs, o yaddaş izini - sönmüş ocağımızı təzədən közərtmək, ev-eşiyimizi qaytarmaq üçün nə etməliyik? Hardan və nədən başlamalıyıq?". Bu sualları müəllif yəqin ki, təsadüfi qoymur. Sanki həmin suallarla yaddaşı qanatmağa çalışır. Axı yaranın üstü qaysaq bağlayanda süni sağalma prosesi gedir. Bununla da yaranı doğuran səbəb, yaranın işləklik dərəcəsi, yaranın ağrı-acısı... unudulur, başqa sözlə, tarix yaddan çıxır. Yeni gələn nəsil tarixi öz zamanından başlayaraq qavrayır. Elə bu səbəbdən də müəllif İrəvan, qərbi Azərbaycan uğrunda aparılan mübarizəni babaların şərəfli həyat yolu kimi xarakterizə edir. Və belə qənaətə gəlir ki, yeni nəsil o zaman xalqın tarixi haqqı uğrunda mübarizə apara bilər ki, o keçmişdən xəbərdar olsun. Artıq dəfələrlə qeyd etdiyimiz kimi, Şəfəq Nasirin babası Məmmədəli Nasir də həmin tarixi keçmişin unudulmamamlı olan obrazlarındandır. Məmmədəli Nasirin İrəvan ədəbi mühitindəki salnamədə qalan izləri Şəfəq Nasiri ulu keçmişə münasibət baxımından silahlandırır. Və onun bu gün əsassız olmayan nostalji duyğularının qabarmasına imkan yaradır.

Əsas izə qayıtmaqdır. Həmin izlər ulu keçmişlə maraqlanan hər kəsi əsl məqsədinə, məramına qədər müşayət edə bilər. Şəfəq Nasir bu izlər sırasında ötən əsrin əvvəllərindəki İrəvan ədəbi mühitini yaşadan salnaməni görür: "Mənəvi dəyərlərimizin bir qolu da İrəvan mətbuatıdır. Əsrin əvvəllərində orada "Zəngi", "Rəcbər", "Leylək" və başqa bu kimi mətbuat orqanları fəaliyyət göstərib. Nə qədər yaradıcı ziyalılar yetişib. Yüzlərlə, minlərlə soydaşlarımızın o yerlərdə yaradıcı - qurucu həyatı qalıb. Bunları araşdırmaq, ortaya çıxartmaq, gələcək nəslə tanıtmaq, İrəvan mühitində, mədəniyyətində təsərrüfatında necə böyük işlər gördüynü təqdim etmək bizim borcumuzdur". Şəfəq Nasirin "Yaddaş silsiləsi"ndən növbəti yazısını burada da bitirmək olardı. Ancaq müəllifin mənəvi tələb kimi qarşımıza qoyduğu məsələnin bu gün üçün aktual olan tərəfi var: Ermənistanda hakimiyyət dəyişikliyi fonunda baş verən hadisələr nəinki tarixi əraziləri, hətta Qarabağ məsələsini belə, sual altında qoyur.

İndiki dövrdə ziyalıların birliyi dövlətimizin daha cəsarətli xarici siyasətinə dəstək olarsa, onda düşmən gələcəkdə hansı güclə qarşılaşa biləcəyini daha düzgün təsəvvür edə bilər və bununla da mənəvi cəhətdən təksilah olar və danışıqlar masasına gələr.

Şəfəq Nasir bu publisistik düşüncələrəsini düz 22 il bundan əvvəl yazıb. Atalar məsəli var, deyərlər ki, "söz vaxtına çəkər"...

Yazı "Yaddaş ağrısı" adı ilə 27 may 1998-ci ildə "Respublika" qəzetində nəşr olunub.

Şəfəq Nasir doğru deyir: "Yaman olur yaddaş ağrısı".

*Əli Rza XƏLƏFLİ*
*06.05.2020*